*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİ

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 yanvar 2016-cı il № 5 (2020) Qiyməti 25 qəpik


## 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Prezident təqaüdü artırılıb

Prezident İlham Əliyev 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması və "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 19 yanvar tarixli 370 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

AZƏRTAC xəbər verir ki, Fərmana əsasən, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2016-cı il fevralın 1-dən 10 faiz artırılır.

## Şəhid ailələri üçün Prezident təqaüdü artırılıb

Prezident İlham Əliyev "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli 493 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

AZƏRTAC xəbər verir ki, şəhid ailəsinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə imzalanmış Fərmana əsasən, "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün aylıq məbləği 10 faiz artırılaraq 2016-cı il fevralın 1-dən 220 manat müəyyən edilir.

## Əmək pensiyalarının baza hissəsi artırılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə əmək pensiyalarının baza hissəsinin artırılması haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, yaşa görə əmək pensiyasının baza hissəsinin məbləği 2016-cı il fevralın 1-dən 10 faiz artırılaraq 110 manat müəyyən edilib.

Dövlət Sosial Müdafiə Fonduna tapşırılıb ki, Azərbaycanın Milli Qəhrəmanlarının və şəhidlərin ailə üzvlərinin, əlillərin və digər şəxslərin əmək pensiyalarının baza hissəsinə əlavələr də daxil olmaqla, bütün növ əmək pensiyaları üzrə aylıq pensiya məbləğlərinin bu Sərəncama uyğun olaraq artırılaraq yenidən hesablanmasını təmin etsin.

## Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə əməkhaqları artırılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əməkhaqlarının artırılması haqqında müvafiq sərəncamlar imzalayıb.

AZƏRTAC xəbər verir ki, sərəncamlara əsasən, dövlət büdcəsindən maliyyələşdirilən elm və elmi tədqiqat müəssisə, idarə və təşkilatlarında, mədəniyyət, gənclər və idman, səhiyyə, sosial təminat, təhsil müəssisələrində çalışan işçilərin əməkhaqları fevralın 1-dən orta hesabla 10 faiz artırılır.

## Hərbi qulluqçuların maaşları artırılıb

Azərbaycan Respublikası Prezidenti Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, vəzifə maaşları orta hesabla 10 faiz artırılmaqla 2016-cı il fevralın 1-dən qüvvəyə minir.

# Azərbaycanın qəhrəmanlıq səhifəsi

## 20 Yanvar hadisələrinin siyasi-hüquqi cəhətdən araşdırılması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır



Ümummilli liderimiz Heydər ƏLİYEV:

*Azərbaycan xalqı 1990-cı ilin 20 Yanvarında hərbi, siyasi və mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlıq və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi...*



***1990-cı ilin Qanlı Yanvar faciəsindən neçə illər ötsə də, bu hadisə xalqımızın yaddaşında hər zaman ümumxalq hüzn günü kimi dərin kədər, qüssə ilə, lakin qürurla yad edilir. Həmin gecə Sovet imperiyası quruluşu qoruyub saxlamaq üçün dinc xalqa silah qaldırmaqdan çəkinmədi, küçələr, meydanlar al qana boyandı, bütün xalq matəmə büründü. Lakin bircə onunla təsəlli tapırıq ki, müstəqil Azərbaycan dövlətinin qəhrəmanlıq səhifəsi olan 20 Yanvar günündə xalqımız imperiyanın top-tüfənginin qarşısından geri çəkilmədi, istiqlaliyyəti uğrunda mübarizə apardı, əsl cəsarət və hünər göstərdi. Tariximizə ümumxalq hüzn günü kimi daxil olmasına baxmayaraq, 20 Yanvar hadisələri bəşəriyyətə xalqımızın mübariz, qürurlu, azad və alnıaçıq yaşamağa qadir olduğunu nümayiş etdirdi.***

20 Yanvar faciəsi haqqında həqiqətin dünya ictimaiyyətinə çatdırılması üçün yalnız ümummilli liderimiz Heydər Əliyev qətiyyətli addım atdı. O, hadisə baş verən günün səhərisi Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək 20 Yanvar faciəsinə münasibətini açıqladı, ona siyasi qiymət verdi və bu qanlı hadisənin Azərbaycan xalqına qarşı hərbi təcavüz olduğunu bildirdi.

Xalqımızın xilaskar oğlu Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin mahiyyəti rəsmi dövlət səviyyəsində açıqlandı və xalqımıza qarşı törədilən qəddarlığa siyasi-hüquqi qiymət verildi. Milli Məclisin qəbul etdiyi xüsusi qərarda göstərildi ki, XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli qətl idi.

20 Yanvar hadisələrində günahsız insanlar qurban getsə də, bu sınaq və milli qürur günü xalqımızın müstəqil, azad yaşamağa layiq olduğunu bir daha sübut etdi. Hələ neçə əsrlər öncə Azərbaycanın məşhur sərkərdəsi, xalqımızın milli-azadlıq mübarizəsinin liderlərindən biri Babək deyirdi ki, bircə gün azad ömür sürmək qırx il miskin qul kimi yaşamaqdan şərəflidir. Tarix boyu güclü düşmənlərinə qarşı mübarizə aparmış Azərbaycan xalqı XX əsrin sonlarında imperiya qüvvələrinə qarşı bir daha qətiyyət, əzm nümayiş etdirdi, öz müstəqilliyi uğrunda gərgin savaşa başladı.

Xalqımızın ümummilli lideri Heydər Əliyev 20 Yanvar faciəsinin bütün dünyada tanıdılmasına, bu qanlı terror hadisəsində, eləcə də Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan insanların xatirəsinin əbədiləşdirilməsinə hər zaman diqqətlə yanaşıb. Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə-kompleksi də ulu öndərin təşəbbüsü ilə inşa edilib. Əslində bu möhtəşəm abidə şəhidlərimizin ruhu qarşısında Azərbaycan xalqının müqəddəs borcunun, mənəvi ehtiramın təzahürüdür. Şəhidlərimizin xatirəsini əziz tutmaq, onların qəhrəmanlıq nümunələrini gənc nəslə təbliğ etmək hər birimizin bir vətəndaşlıq vəzifəsi olmalıdır.

1990-cı ilin 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə dərin ehtiram, tükənməz diqqət və qayğı ulu öndərimizin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün də davam etdirilir. Təcrübəli siyasi lider öz xalqı qarşısında, şəhidlərimizin ruhuna ehtiram əlaməti olaraq təkcə dövlət başçısı kimi deyil, həm də bir vətəndaş kimi öz borcunu inamla, qətiyyətlə yerinə yetirir. Bu gün ölkəmizdə şəhid ailələrinin sosial müdafiəsini gücləndirmək üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

Hər il Qanlı Yanvar faciəsinin ildönümü ölkə rəhbərliyi və xalq tərəfindən böyük ehtiramla yad edilir, şəhidlərin xatirəsi anılır. Xalqımıza qarşı törədilmiş bu soyqırımı ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar da 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə böyük ehtiramın bariz nümunəsidir.

20 Yanvar hadisələri xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz idi. Lakin Azərbaycan xalqı öz qürurunu, mənliyini itirmədi. Xalqımızın qan yaddaşına yazılmış 1990-cı ilin 20 Yanvar günü müstəqil Azərbaycanın tarixində həm də bir qəhrəmanlıq səhifəsidir.

Qətiyyət, əzm, iradə, milli heysiyyat imperiyanın qəddarlığına qalib gəldi, Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu...

**"Azərbaycan Ordusu"**

## Müdafiə sahəsi üçün nəzərdə tutulan xərclər ötən illə müqayisədə xeyli artıb

***Müdafiə Nazirliyi Silahlı Qüvvələrimizin maliyyələşməsi haqqında bəzi elektron kütləvi informasiya vasitələrində yer alan xəbərlərlə bağlı məlumat yayıb.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlumatda qeyd olunub: "Silahlı Qüvvələrimizin maliyyələşməsi haqqında bəzi elektron kütləvi informasiya vasitələrində yalan və əsassız məlumatların yer alması yalnız təəssüf və təəccüb hissi doğurur. Nazirlik səsləndirilən bu qeyri-ciddi iddiaları tamamilə rədd edir. Belə ki, 2016-cı ildə müdafiə sahəsi üçün nəzərdə tutulan xərclər ötən illə müqayisədə xeyli artıb. Hərbi qulluqçuların pul təminatı azalmayıb, Silahlı Qüvvələrin ümumi sayında heç bir dəyişiklik yoxdur. Tam əksinə, mərkəzi aparatda və qərargahlarda edilən ştat-struktur dəyişikliyi nəticəsində optimallaşmaya nail olunub, ön xətdə yerləşdirilən yeni döyüş təyinatlı hərbi hissələrdə ixtisaslı vəzifələrin sayı çoxalıb. Bunun hesabına hərbi qulluqçuların maaşları faiz baxımından artıb, şəxsi heyətin və ailə üzvlərinin sosial təminat bazası gücləndirilib".

Bildirilib ki, Ali Baş Komandanın tapşırığına əsasən, 2016-cı il ərzində bu istiqamətlərdə görülən işlər davam etdiriləcək. İl ərzində 10-a yaxın yeni hərbi şəhərciyin, eləcə də xidməti və daimi mənzillərin istifadəyə verilməsi planlaşdırılır. Novruz bayramı günlərində açılacaq 3 yeni hərbi şəhərcik də görüləcək fəaliyyətlərin bariz nümunəsi olacaq. Bu ərəfədə Silahlı Qüvvələrdə təşkil ediləcək "Açıq qapı" günündə valideynlər və ictimaiyyət nümayəndələri də deyilənlərin şahidi olacaqlar. Eyni zamanda, döyüş hazırlığının gücləndirilməsi istiqamətində planlaşdırılan ikitərəfli, çoxtərəfli beynəlxalq, o cümlədən birlik və birləşmə səviyyəsində, müxtəlif qoşun növlərinin cəlb olunması ilə xeyli sayda təlimlər də keçiriləcək.

"Bir daha bildiririk ki, Silahlı Qüvvələrimizlə bağlı hər hansı məlumat yayarkən şəxsi maraqları kənara qoyub, xalqın maraqlarından və dövlətin təhlükəsizliyi mənafeyindən çıxış etmək zəruridir.

Silahlı Qüvvələrdə il ərzində görülən işlər, fəaliyyətlər, həyata keçirilən bütün tədbirlər barədə Müdafiə Nazirliyi şəffaf şəkildə, vaxtında və faktlarla məlumatları ictimaiyyətə təqdim edəcək", - deyə məlumatda qeyd olunub.

## Mövlud Çavuşoğlu:
## Türkiyə Dağlıq Qarabağ məsələsinə özünün problemi kimi yanaşır

Türkiyənin Qaziantep Universitetində keçirilən "Səkkizinci beynəlxalq səfirlər" konfransında iştirak edən xarici işlər naziri Mövlud Çavuşoğlu çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə toxunub. Azərbaycan torpaqlarının 20 faizinin təcavüzkar Ermənistan tərəfindən işğal altında saxlanıldığını diqqətə çatdıran nazir bildirib ki, Türkiyə hökuməti ATƏT-in Minsk Qrupu çərçivəsində qardaş Azərbaycana bu problemin ədalətli həlli üçün hər cür dəstəyini verməkdədir. M.Çavuşoğlu qeyd edib ki, Türkiyə Dağlıq Qarabağ məsələsinə özünün problemi kimi yanaşır.

Qeyd edək ki, konfransda Türkiyənin hökumət üzvləri, xarici ölkələrdəki səfirləri, bölgədəki vilayətlərin rəhbər şəxsləri, görkəmli alimlər, o cümlədən ölkə ictimaiyyətinin tanınmış simaları iştirak ediblər.

**AZƏRTAC**

# 20 Yanvar - qəhrəmanlıq və qürur günü





***20 Yanvar faciəsinin 26-cı ildönümü ilə əlaqədar Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsində tədbir keçirilib.***

Tədbiri Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev açıq elan etdi. Ümummilli lider Heydər Əliyevin və 20 Yanvar faciəsində, torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

26 il əvvəl - 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet imperiyasının əsgərləri xalqımızın milli-azadlıq hərəkatını boğmaq üçün o vaxt SSRİ-yə rəhbərlik edən Mixail Qorbaçovun əmri ilə ölkəmizin paytaxtı Bakı şəhərinə hücum etdilər. Bu qanlı hadisələrdə neçə-neçə şəhər sakini şəhid oldu, yaralandı. Amma heç kim tutduğu yoldan, amalından dönmədi. Təəssüflər olsun ki, bu qanlı hadisələrə vaxtında siyasi qiymət verilmədi. Yalnız xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev tərəfindən 20 Yanvar faciəsinə siyasi qiymət verildi.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani çıxışında bildirdi ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana uyğun olaraq, bu günlər hərbi hissə, birləşmə və birliklərdə 20 Yanvar faciəsinin ildönümü ilə bağlı anım mərasimləri keçirilir. "Biz tədbirdən sonra layiq olduqları orden və medalları təqdim etmək üçün şəhid ailələrinə baş çəkəcəyik. Bu günə qədər 20 Yanvar faciəsindən çox deyilib, çox yazılıb. Yəqin ki, bundan sonra da yazılacaq, deyiləcək. Hörmətli mərasim iştirakçıları, həm ümummilli liderimiz Heydər Əliyevin, həm də möhtərəm Prezidentimiz İlham Əliyevin 20 Yanvar faciəsi haqqında dediyi fikirləri sizin diqqətinizə çatdırmaq istəyirəm".

Ümummilli liderimiz Heydər Əliyev demişdir:

"XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir... 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazdılar. Bu gün də Azərbaycan xalqı onun milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir".

Möhtərəm Prezidentimiz İlham Əliyev 20 Yanvar faciəsi haqqında demişdir:

"20 Yanvarda Sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Bakı Dövlət Universitetinin kafedra müdiri, tarix elmləri doktoru, professor Anar İsgəndərovun çıxışı da maraqla qarşılandı.

"Xalqımız üzləşdiyi faciələrdən həmişə alnıaçıq, başuca çıxıb. 1990-cı ildə də belə oldu. Milli-azadlıq mübarizəsinə qalxmış xalqımızı Sovet imperiyasının nə tankı, nə silahı, nə də əsgəri susdura bildi. Azadlığımız uğrunda mübarizəyə qalxmış oğul və qızlarımızın fədakarlığı hədər getmədi. Bu gün Şəhidlər xiyabanı xalqımızın ziyarətgahına, and yerinə çevrilib. 20 Yanvar faciəsi həm də bir ibrət dərsi idi.

Ölkəmizin gücü, qüdrəti artdıqca ordumuz da inkişaf edib formalaşır. Azərbaycan əsgərinin qəhrəmanlığının, igidliyinin sorağı əsrimizin əvvəllərindən gəlir. 1918-ci ilin sentyabrında Bakının, 1920-ci ildə Qarabağın azad edilməsində Azərbaycan əsgərləri böyük hünər və qəhrəmanlıq göstərdilər. Əminəm ki, Silahlı Qüvvələrimizin şəxsi heyəti sələflərinin döyüş yollarını şərəflə davam etdirərək həm Qarabağı, həm də işğal altında olan başqa torpaqlarımızı erməni işğalçılarından azad edəcək".

Yazıçı-jurnalist Rafiq Səməndər isə çıxışında 20 Yanvar günlərində yazdığı "Şəhidlər" kitabından danışdı. "Faciənin baş verdiyi günlərdə elə isti-isti şəhidlər haqqında kitab yazmağa başladım. Xəstəxanalara, məscidlərə, yas yerlərinə gedir, şəhidlərin valideynləri ilə görüşürdüm. Xeyli material toplamışdım. Bir gün məni Bakı şəhərinin komendantı general Dubinyakın yanına apardılar. General məni sorğu-suala tutdu. Soruşdu ki, sən nə yazırsan? "Ölənlərin nekroloqunu yazıram, amma bir az ətraflı yazıram. Məgər sizdə ölənlərə nekroloq yazmırlar?" - dedim. General "Yazırlar", - dedi. Sonra tapşırdı ki, nə yazsan, çap etməzdən əvvəl gətirib bizə göstərərsən. Amma elə yaz ki, ölənlərə güllə qurşaqdan aşağı dəymiş olsun. Kitab çapa gedəndə materialların xeyli hissəsini çıxardılar. O çətin günlərdə biz jurnalistlər də əlimizi xiyabana qoyub oturmamışdıq. Nə yaxşı ki, gördüklərimizi yazmışıq".

Tədbirin sonunda general-mayor Rasim Əliyev çıxış edərək dəvətlərini qəbul etdiklərinə görə qonaqlara minnətdarlıq etdi. Bildirdi ki, 20 Yanvar faciəsi tariximizin şərəfli bir səhifəsidir. "Bu gün hüznlə, göz yaşı ilə deyil, qürur və qəhrəmanlıq günü kimi qeyd olunmalıdır".

**"Azərbaycan Ordusu"**

*Aktual müsahibə*

# “Hərbi qulluqçuların sağlamlığını qorumaq ən ümdə vəzifəmizdir”

## Müsahibimiz Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyevdir



***Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılan müasir Azərbaycan Silahlı Qüvvələri qısa zaman kəsiyində regionun ən güclü ordusuna çevrilib. Hazırkı dövrdə böyük öndərin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində ordu quruculuğunun bütün sahələrində inkişaf öz axarı ilə gedir. Son bir neçə ildə isə Azərbaycan Ordusu mühüm yeniliklərə imza atıb. Ordunun maddi-texniki bazasının möhkəmlənməsi və şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar hərbi qulluqçulara yüksək əhval-ruhiyyə aşılayıb. Artıq bütün cəbhə bölgələrində əsgər və zabitlər üçün müasir məişət şəraiti yaradılıb, əşya-ərzaq təminatı sahəsində yeniliklər edilib. Bəs hərbi səhiyyəmizdə hazırkı vəziyyət necədir, Silahlı Qüvvələrdə tibbi xidmətin müasir standartlara uyğunlaşdırılması istiqamətində hansı işlər görülüb? Əməkdaşımız bu məsələlərlə bağlı Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyevlə söhbət edib.***

***- Cənab general, gəlin söhbətimizə yola saldığımız 2015-ci ilin yekunlarına nəzər yetirməklə başlayaq. Ötən il hərbi səhiyyəmizin tarixində hansı uğurları ilə yadda qalacaq?***

- Bildiyiniz kimi, Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən 2015-ci il orduda "Döyüş hazırlığı ili" elan edilmişdi. Buna müvafiq olaraq ordunun bütün strukturlarında olduğu kimi, hərbi tibb xidmətinin də müasir səviyyədə qurulması məqsədilə mühüm addımlar atıldı və bu işlər hazırda davam etdirilir. Əlbəttə, ölkənin müdafiə potensialının artırılması məqsədilə həyata keçirilən irimiqyaslı tədbirlər dövlətimizin, şəxsən Ali Baş Komandan cənab İlham Əliyevin ordunun inkişaf etdirilməsinə hesablanmış məqsədyönlü siyasətinin bariz nümunəsidir. Artıq Silahlı Qüvvələrimizdə görülən bütün tədbirlər ölkə başçısının bu sahəyə xüsusi önəm verdiyini sübuta yetirir. Yadınızdadırsa, Prezident 2003-cü ildə siyasi hakimiyyətə gəldiyi ilk gündən ordu quruculuğunu dövlətin əsas prioriteti elan etmişdi.

Ötən il Silahlı Qüvvələr Günü ərəfəsində Hərbi Dəniz Qüvvələrinin yeni inzibati binasının açılış mərasimində iştirak edən Ali Baş Komandan burada yaradılan müasir hərbi poliklinikanın şəraiti, müalicə-müayinə kompleksi və yeni tibbi avadanlıqlarla tanış oldu. Dövlət başçısı həmin tədbirdə bir daha vurğuladı ki, hərbi qulluqçuların sosial şəraitinin müasir səviyyədə qurulması üçün lazım olan bütün tədbirlər yenə də davam etdiriləcəkdir. Bir faktı xüsusi qeyd etmək istərdim ki, dövlət rəhbərliyinin diqqət və qayğısı sayəsində hərbi hissələrdə məişət şəraitinin yaxşılaşdırılması və keyfiyyətli qida təminatı, həmçinin tibbi-profilaktik tədbirlər hərbi qulluqçular arasında rast gəlinə biləcək xəstəlik hallarını minimuma endirib.

Bu gün ölkəmizdə mövcud olan müasir hərbi səhiyyə sistemi ən ağır ürək cərrahiyyəsi əməliyyatlarının Baş Klinik Hospitalda uğurla həyata keçirilməsinə zəmin yaradır. Əgər əvvəlki illərdə hər il 20-30 nəfər hərbi qulluqçumuz əməliyyat olunmaq üçün Gülhanə Hərbi Tibb Akademiyasına göndərilirdisə, hazırda bir nəfər xəstənin belə başqa yerə təxliyyəsinə ehtiyac yoxdur. Doğrudan da, dövlətin hərbi səhiyyənin inkişafına verdiyi önəmin nəticəsidir ki, vaxtilə çarəsi tapılmayan xəstəliklər də özümüzdə müalicə olunur. 2015-ci il üçün fəxr duyulası bir faktı qeyd edim ki, Silahlı Qüvvələrdə xəstəlikdən ölüm faktı qeydə alınmayıb. Soyuqdəymə xəstəliklərinin səviyyəsi 43 faiz, mədə-bağırsaq xəstəlikləri isə 22 faizədək azalıb. Əlbəttə, qeyd etdiyim kimi, bütün bu göstəricilər hərbi təbabətə olan dövlət qayğısının nəticəsidir.

***- Ötən dövrlərlə müqayisədə xəstəlik hallarının azalmasını qeyd etdiniz. Buna zəmin yaradan digər amilləri nədə görürsünüz?***

- Əsasən son bir neçə ildə əsgərlərin məişət şəraitinin yaxşılaşmasını xüsusi vurğulamaq istərdim. Təkrar qeyd edirəm ki, bu gün dövlətimiz və ordu rəhbərliyi şəxsi heyətin sosial-məişət şəraitini yaxşılaşdırmağı vacib bir məsələ olaraq diqqətdə saxlayır. Artıq bütün bölgələrimizdə, düşmənlə təmas xəttindəki hərbi bölmələrdə müasir şərait mövcuddur. Yeni tipli əsgər yataqxanaları inşa edilir və burada müasir istilik sistemi yaradılır, sanitariya-gigiyenik normalara əməl edilir və hamam-camaşırxanalar yenidən qurulur. Şəxsi heyət keyfiyyətli və şəraitə uyğun kalorili qidalarla təmin edilir. Söz yox ki, bu amillər orduda xəstəlik hallarını minimuma endirib. Əlbəttə, sualın bir əsas cavabını da hərbi tibbi xidmətin təkmilləşdirilməsi ilə izah etmək yerinə düşərdi.

2015-ci ilin ən mühüm yeniliklərindən biri əlahiddə tibb taborlarının bazasında müasir hərbi hospitalların yaradılmasıdır. Bundan əlavə cəbhə xəttində yerləşən hərbi hissələrdə yeni tibb məntəqələri tikilərək müasir texniki avadanlıqları ilə hərbçilərin ixtiyarına verilib. Bundan əlavə ambulans helikopteri və sanitar kater istifadəmizdədir. Ələt qəsəbəsindəki ağciyər xəstəlikləri üzrə ixtisaslaşdırılmış hospital tamamilə yenidən qurulur, həmçinin, Naxçıvanda da müasir hospitalın tikintisi başa çatmaq üzrədir. Mərkəzi Stomatoloji Poliklinika və Baş Klinik Hospitalın dəri-zöhrəvi xəstəliklər bölməsi də tam təmir olunub.

Yeri gəlmişkən, ordu rəhbərliyinin hərbi təbabətin inkişafına verdiyi önəmi vurğulamaq istərdim. Artıq təqdirəlayiq bir ənənədir ki, hər ilin yekunları və qarşıda duran vəzifələrin müzakirəsi ilə bağlı toplantılarda Müdafiə naziri şəxsən iştirak edir. Bu, bizə göstərilən diqqətin gerçək bir nümunəsidir. Hörmətli nazirimiz hərbi tibb müəssisələrinin rəhbər heyəti qarşısında proqram xarakterli çıxışlarında daim dəyərli tövsiyələrini bildirir, təkliflərini bölüşür.

***- Yeni hərbi hospitalların yaradılması hansı zərurətdən irəli gəlir?***

- Yuxarıda qeyd etdiyim kimi, bir sıra əlahiddə tibb taborlarının bazasında yeni hərbi hospitalların cəbhə xəttinə yaxın bölgələrdə yerləşdirilməsi zərurətdir. Axı Azərbaycan Ordusunun böyük sayda şəxsi heyəti cəbhə xəttinə yaxın hərbi hissələrdə xidmət edir və düşmənlə təmas mövqelərində döyüş tapşırıqlarını yerinə yetirir. Onların sağlamlığını qorumaq bizim ən ümdə vəzifəmizdir və bu vəzifənin məsuliyyətlə yerinə yetirilməsi üçün həmin tibb müəssisələri təcrübəli tibb işçiləri ilə komplektləşdirilir.

Hazırkı mərhələdə xəstəliklərin azalması ilə əlaqədar tibb xidməti ştatları optimallaşdırılmış, mərkəzi tabelikdə olan bəzi hospitallar bağlanmışdır. Xəstə və yaralılara yerində ixtisaslı tibbi yardımın göstərilməsi məqsədilə əlahiddə tibb taborlarına hospital statusu verilib.

Bu isə xəstə və yaralılara keyfiyyətli tibbi qulluq göstərilməsinə zəmin yaradacaq.

***- Cənab general, dövlət başçısının müvafiq sərəncamı ilə hazırda hərbi birliklərdə, habelə müxtəlif qoşun birləşmələrində gənclərin hərbi xidmətə qəbul edilməsi davam edir. Gənc əsgərlərin sağlamlıq vəziyyətinə təminat verilməsi ordu quruculuğunda vacib tədbirlərdən biridir. Tibb Baş İdarəsi tərəfindən bu sahədə işlər necə qurulub?***

- Bu günümüz üçün aktual olan bir məsələyə toxundunuz. Doğrudan da, hərbi xidmətə qəbul edilən gənclərimizin təkrar tibbi müayinədən keçirilməsi vacib bir prosesdir. Əbəs yerə demirlər ki, ordu sağlam, cəsur və iradəli gənclərin yeridir. Müdafiə Nazirliyinin rəhbərliyi də daim bu məsələni diqqət mərkəzində saxlayır və ordunun şəxsi heyətinə yalnız sağlam gənclərin qəbul edilməsini qarşımızda bir vəzifə kimi qoyur. Əslində mürəkkəb təbii şəraitlərdə çətin döyüş tapşırıqlarını icra edən şəxsi heyət arasında sağlamlığa şübhə doğuran hal qeydə alına bilməz. Bu məqsədlə tərəfimizdən lazım olan bütün tədbirlər görülür. Yanvarın əvvəlindən fəaliyyətə başlamış tibbi komissiyalar Müdafiə nazirinin göstərişi ilə yaradılıb və buraya müxtəlif ixtisaslar üzrə bacarıqlı mütəxəssislər cəlb edilib. Komissiya üzvləri yerlərdə gənc əsgərlərin hərbi hissələrə qəbulu zamanı onların tibbi müayinədən keçirilməsini təmin edirlər. Ordu rəhbərliyinin əsas tələbi ondan ibarətdir ki, hərbi xidmətə yalnız sağlam gənclər qəbul edilsinlər.

***- Qarşıya qoyulan mühüm bir vəzifənin - Silahlı Qüvvələrin hərbi qulluqçularının sağlamlığının etibarlı qorunması, heç şübhəsiz ki, hərbi tibb kadrlarının peşəkarlıq səviyyəsinin artırılmasını da bir vacib məsələ kimi ortalığa çıxarır. Natiq müəllim, bu istiqamətdə hansı tədbirlər həyata keçirilir? İstər ölkə miqyasında, istərsə də inkişaf etmiş xarici dövlətlərdə təcrübəli həkimlərin hazırlanması sahəsində hansı uğurları qeyd etmək olar?***

- Doğrudan da, qarşımızda qoyulan tapşırıqların yerinə yetirilməsinin əsas yükü kadrların üzərinə düşür. Adətən deyirlər, hər şeyi kadrlar həll edir. Bu fikirdə həqiqət var. Cənab nazirimizin çox vaxt önəm verdiyi bir deyim var: "Ən müasir silahı idarə edən əsgərdir". Həqiqətən belədir, nə qədər müasir tibbi avadanlıqlarımız, texniki vasitələrimiz olsa belə, bütün bunları idarə edən bacarıqlı mütəxəssislərdir. Bu sahədə ötən il kifayət qədər uğurlarımız olub. 2015-ci ilin aprelində nazirimizin dəvəti ilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin tibb xidməti rəisi ölkəmizə işgüzar səfərə gəlmişdi. Bu səfər çərçivəsində Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında tibbi təminat sahəsində vacib məsələlər müzakirə olundu və hər iki qardaş ölkənin hökumətləri arasında hərbi tibb sahəsində təhsil və əməkdaşlıq razılaşmasının layihəsi işlənib hazırlandı.

Ötən il ərzində hərbi tibb müəssisələrində çalışan hərbi və mülki həkimlərin peşəkarlıq səviyyəsinin artırılması üçün mühüm tədbirlər görülüb. Hazırda Gülhanə Hərbi Tibb Akademiyasında 60-a yaxın həkimimiz vacib ixtisaslar üzrə təhsil alır. Türkiyədə və Almaniyada kursları bitirmiş 75 nəfər hərbi həkim artıq hərbi hospitallara təyin ediliblər. Onlarla tibb zabiti isə müxtəlif inkişaf etmiş dövlətlərdə elmi-praktik konfranslarda müasir tibb elminin aktual mövzularında çıxış edib.

Hazırda hərbi təbabətimiz elmi əsaslarla inkişaf edir, nailiyyətlərimiz ilbəil artır. Keçən il iki nəfər hərbi həkimimiz tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsinə layiq görülüb. Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsi üçün yeni inzibati bina istifadəyə verilib və Müdafiə naziri general-polkovnik Zakir Həsənov, ordunun digər rəhbər nümayəndələri açılış tədbirində iştirak ediblər. Gələcəyin peşəkar hərbi tibb mütəxəssislərinin hazırlanması məqsədilə fakültədə yüksək təlim bazası yaradılıb, həmçinin ən müasir tələblərə uyğun simulyasiya otaqları kursantların ixtiyarına verilib. Biz çalışırıq ki, gələcəyin hərbi həkimləri yüksək savada və hərbi vərdişlərə alışaraq orduda şəxsi heyətin sağlamlığının qorunmasına dəyərli töhfələrini versinlər.

Həm Baş Klinik Hospitalda, həm də bölgələrdə aparıcı mövzularda vaxtaşırı elmi-praktik konfranslar təşkil edilir ki, belə tədbirlərdə ölkəmizin nüfuzlu tibb mütəxəssisləri, alimlər iştirak edirlər. Bütün bunlar isə hərbi tibb işçilərinin peşəkarlıq səviyyəsinin yüksəlməsinə zəmin yaradır.

***- Cənab general, sonda arzularınızı bölüşməyi istərdim.***

- Bu gün xalqımızın ən dəyərli oğulları Silahlı Qüvvələrimizdə xidmət edir, əksəriyyəti erməni silahlı bölmələri ilə üz-üzə mövqelərdə Vətənimizi mətinliklə qoruyur. Mən deyərdim ki, həmin döyüşçülərimizin hər biri cəmiyyətimizdə ən yüksək hörmət və ehtirama layiqdir. Məhz müdrik Ali Baş Komandanımızın rəhbərliyi, mətin oğullarımızın hünər və şücaəti ilə tezliklə torpaqlarımız işğaldan azad ediləcəkdir. Bizim əsas borcumuz isə Vətən oğullarının sağlamlığı keşiyində ayıq-sayıq dayanmaqdır.

***- Müsahibəyə görə çox sağ olun.***

**Söhbəti apardı:**
**polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO görüşündə iştirak edəcək

Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov NATO-nun mənzil-qərargahında Şimali Atlantika Alyansının Hərbi Komitəsinin "Qətiyyətli Dəstək" missiyasına töhfə verən qeyri-NATO ölkələri ilə Baş Qərargah rəisləri səviyyəsində keçiriləcək görüşdə iştirak etmək üçün Brüssel şəhərinə yola düşüb.

Görüşdə hərbi əməkdaşlıq məsələləri, Əfqanıstandakı siyasi və təhlükəsizlik vəziyyəti, əməliyyat şəraitindəki dəyişikliklər, onların Əfqan Milli Təhlükəsizlik Qüvvələrinə təsiri və digər mövzular ətrafında müzakirələr aparılacaq.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

Yanvarın 18-dən 20-dək Konya şəhərində (Türkiyə Respublikası) "Turaz Şahini - 2016" təliminin əsas planlaşdırma iclası, yanvarın 18-dən 22-dək Brüssel şəhərində (Belçika Krallığı) ümumi təhlükəsizlik və müdafiə siyasəti üzrə treninq kursu və yanvarın 18-dən aprelin 8-dək Şrivenhəm şəhərində (Böyük Britaniya) hərbi ingilis dili təməl kursu keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***18 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 115 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Dovex, Barekamavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Kəmərli, Qaymaqlı kəndlərində, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Qaraqaşlı, Şuraabad, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 116 dəfə atəş zərbəsi endirib.

***19 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 132 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Parvakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Ağstafa rayonunun Köhnəqışlaq kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əlibəyli, Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Çaylı, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Qaraqaşlı, Şuraabad, Nəmirli, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 132 dəfə atəş zərbəsi endirib.

## 20 Yanvar faciəsindən 26 il keçir

# Silahlı Qüvvələrdə Qanlı Yanvar faciəsinin ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib

***Azərbaycanın azadlığı və müstəqilliyi naminə canlarından keçmiş soydaşlarımız hər il xalqımız, o cümlədən hərbçilər tərəfindən dərin hörmətlə yad edilir. 20 Yanvar faciəsinin 26-cı ildönümü ilə bağlı Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, bu günlərdə Silahlı Qüvvələrimizdə geniş tədbirlər keçirilib. Hərbi qulluqçular Vətənimizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatlarını qurban vermiş Azərbaycan övladlarının xatirəsinə ucaldılmış abidələri ziyarət edib. Faciə qurbanlarının xatirəsi ehtiramla yad olunub.***

***Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində Qanlı Yanvar hadisələri ilə bağlı "dəyirmi masa", konfrans, toplantı və xüsusi məşğələlər keçirilib. Müdafiə Nazirliyinin zabitlər evlərində faciəyə həsr olunmuş tamaşalar, bədii və sənədli filmlər nümayiş etdirilib. Anım mərasimlərində, həmçinin, şəhid olanların ailə üzvləri, hadisələrin iştirakçıları ilə şəxsi heyətin görüşləri keçirilib.***

## Azadlıq tarixi yazdı şəhidlər

Yanvarın 18-də Təlim və Tədris Mərkəzi ilə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin birgə təşkilatçılığı ilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Vətənin azadlığı naminə canını qurban verən şəhidlərin xatirəsinə həsr olunan tədbir keçirilib. Təlim və Tədris Mərkəzinin şəxsi heyətinin, C.Naxçıvanski adına Hərbi Liseyin bir qrup müəllim və kursantının iştirak etdiyi tədbiri mərkəz rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Elvin Əzizov açıq elan edib.

Ümummilli lider Heydər Əliyevin, respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının və 20 Yanvar faciəsi qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla anılmasından sonra Dövlət himni səsləndirilib.

Mərasim iştirakçıları Mərkəzi Zabitlər Evinin mədəni kütləvi tədbirlər bölməsinin rəisi Gülxar Məmmədovanın xalqımızın başına gətirilən müsibətlərin tarixi köklərindən, 20 Yanvar faciəsinə gətirib çıxaran səbəblərdən, torpaqlarımızın zaman-zaman parçalanma mərhələlərindən bəhs edən çıxışını maraqla dinləyiblər.

Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin ifasında "Azadlığa gedən yol" ədəbi-bədii kompozisiya təqdim olunub. Teatrlaşdırılmış kompozisiyanın ssenari müəllifi-rejissoru respublikanın əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyev, quruluşçu rəssamı isə polkovnik-leytenant Eldar Sadıqovdur. Silahlı Qüvvələrin Mahnı və Rəqs ansamblının solistlərinin ifasında səsləndirilən kədərli musiqilər o faciə anını, qanlı hadisələri bir daha xatırladıb. Vətənin azadlığı, müstəqilliyi uğrunda qorxmadan, güllə qarşısında əliyalın buz heykələ dönən oğul və qızların obrazları canlı olaraq təqdim olunub. Əbədi azadlıq, müstəqillik tarixi yazan şəhidlərimizin ruhu "Azadlığa gedən yol" adlı kompozisiyada böyük ehtiramla anılıb.

**"Azərbaycan Ordusu"**

## "Azadlığa aparan şanlı yol"



Azərbaycan Hərb Tarixi Muzeyində "Azadlığa aparan şanlı yol" adlı tədbir keçirildi. Mərasimi muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açıq elan etdi. Ümummilli lider Heydər Əliyevin, 20 Yanvar faciəsində və Qarabağ müharibəsində şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni oxundu.

Polkovnik Əzizağa Qənizadə çıxışında 20 Yanvar faciəsinə aparan yoldan ətraflı söz açdı. Bildirdi ki, bu tarixi gündə Azərbaycan xalqı on illər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda hətta canından da keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi.

"Ötən əsrin 80-ci illərinin axırlarında torpaqlarımızın toxunulmazlığı uğrunda başlamış çıxışlar sonda möhtəşəm xalq hərəkatına çevrildi. Səbr kasası daşan xalqımızın səsi, amalı imperiyanı təşvişə saldı. Sovet imperiyasının və əlaltılarının əlləri ilə ölkəmizdə faciələr törədilsə də, millətin iradəsini qıra bilmədi. Əksinə, bu hadisələr mübariz Azərbaycan xalqının azadlıq əzmini daha da artırdı. İmperiyanın törətdiyi 20 Yanvar faciəsində soydaşlarımız qəddarcasına qətlə yetirildi, neçə-neçə ailə başsız qaldı.

İnamla demək olar ki, Sovet imperiyasını 20 Yanvar hadisəsi qədər çökdürən, onun çirkin simasını dünya qarşısında tam çılpaqlığı ilə faş edən, xalqların milli azadlıq hərəkatına güclü təkan verən ikinci bir hadisə olmayıb. Bu hadisənin tariximizdə ölkəmizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq rəmzi kimi böyük əhəmiyyəti var. Hər şeydən əvvəl həmin gün Azərbaycan tarixinə "Azadlığa aparan şanlı yol" kimi düşdü. Bu gün müstəqilliyimiz uğrunda şəhid olanların xatirəsi hörmətlə anılır. Çünki onlar Vətən, millət yolunda, xalqımızın 70 illik imperiya əsarətindən xilası yolunda, bugünkü azadlıq və müstəqilliyimiz yolunda şəhid olmuşdular. Tariximizin bu şərəfli səhifəsi xalqımızın yaddaşından heç zaman silinməyəcək, həmişə böyük qürur hissi ilə yad ediləcək".

Sonra "20 Yanvar" qısametrajlı filmi nümayiş etdirildi.

Axırda muzeyin nümayəndəsi, tədbirin layihə rəhbəri Nuranə Nəcəfova, polkovnik Nizami Əliyev, muzey rəisinin elmi işlər üzrə müavini, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənov və başqaları çıxış edərək 20 Yanvar faciəsinin ağrı-acılarından danışdılar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**



Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində xalqımızın qəhrəmanlıq tarixinə qanla yazılmış bu gün böyük bir ehtiramla qeyd edildi. Tədbirdə Mərkəzi Zabitlər Evinin, 20 Yanvar Cəmiyyətinin, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin nümayəndələri iştirak edirdilər.

Öncə ümummilli liderimiz Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni oxundu.

Tədbiri açıq elan edən Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova çıxışında dedi: "Azərbaycan xalqı ötən əsrin sonlarında uzun illərdən bəri əsarətində olduğu Sovet imperiyasına qarşı əliyalın, inamlı mübarizəyə qalxdı. 20 Yanvar faciəsi SSRİ-nin dağılma prosesində baş verən ən qanlı hadisələrdən biridir. 1988-ci ildən etibarən Ermənistanın ərazi iddiasına qarşı Dağlıq Qarabağda müharibəyə cəlb edilən Azərbaycan Respublikası həm torpaqlarının qorunması, həm də milli müstəqilliyi üçün mübarizə aparırdı. O dövrdə xalqın küçələrə axışması, mitinqlərdə iştirak etməsi ilə Azərbaycan öz suverenliyinin cəfakeşi olduğunu bütün dünyaya sübut etdi".

Gülxar Məmmədova çıxışına davam edərək bildirdi ki, əslində 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda imperiya tərəfindən tarix boyunca əmsalına ancaq orta əsrlərdə rast gəlinə bilən bir qırğın həyata keçirildi. "26 min nəfərlik Sovet hərbi bölmələri Bakını işğal edərək dinc əhaliyə qarşı tanklarla, ağır silahlarla planlı şəkildə hücum təşkil etmişdi. Bu hücumlar qarşısında çaş-baş qalan Bakı əhalisi tanklar altında əzilərək, silahlara tuş gələrək mərhəmətsizcəsinə Sovet ordusu tərəfindən qətl edilmişdi".

Natiq vurğuladı ki, 1990-cı ilin yanvar qırğını Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. "Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar…

## Varıq, var olacağıq!



Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, Şəhidlər xiyabanıdır. Hər il yanvarın 20-də yüz minlərlə insan onların əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edir".

Sonra tədbirdə 20 Yanvar Cəmiyyətinin sədr müavini, istefada olan hərbçi Mustafa Əliyev çıxış edərək bildirdi ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovetlər İttifaqının qoşun hissələri tərəfindən Bakı şəhərində və Azərbaycanın bir neçə rayonunda dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdü. "Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin Bakını zəbt etməsi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdi. Mən o zaman fövqəladə vəziyyətin elan olunmadığı Neftçala rayonunda yaşayırdım. O vaxt bizim rayonda Qarabağın müdafiəsi üçün könüllülərdən ibarət müdafiə komitəsi yaradılmışdı. 1989-cu ildə 1400-1500-dən artıq neftçalalı bizə müraciət edərək torpaqlarımız uğrunda vuruşmaq istəyirdi. Sözsüz ki bu, imperiya əlaltılarının diqqətindən yayınmamışdı".

Cəmiyyətin sədr müavini iştirakçıların nəzərinə çatdırdı ki, Bakıdan sonra xalq hərəkatının ən fəal rayonlarından olan Neftçalada və Lənkəranda yanvarın 25-26-da Sovet ordu hissələri çox güclü əməliyyat keçirdi. "Bu əməliyyatda Neftçalada iki nəfər şəhid oldu, yeddi nəfər yaralandı, otuz nəfər xəsarət aldı. O zaman rayonda qarışıqlıq başlananda hərəkatın fəallarından olan Əli Əsgərli vəziyyəti öyrənmək üçün dəhlizə çıxdı. Elə qapını açmışdı ki, dəhşətli bir mənzərə ilə qarşılaşdı. Silahlı əsgərlər hara gəldi atəş açırdılar. Əli vəhşi görkəmində olan hərbçilərin xüsusi təyinatlılar olduğunu bildirdi. Qapını örtmək istəyirdi ki, güllələr onun üstünə şığıdı. Güllələr otağın taxta divarlarını dəlib keçirdi. Qapıdan bir az aralıda ilk yaralılar yerdə çabalayırdılar. Əbülfəz Cəfərovu, Novruz Dadaşovu, Fərman Hüseynovu vurmuşdular. Ələkbər Talıbovun da gözübaşı şişmişdi, bir qolu sınmış və yaralanmışdı. Abhüseynin dodağı parçalanmış, qabırğası sınmışdı. Bir sözlə, o günləri xatırlamaq çətin olduğu qədər də qürurvericidir. Bu hadisələr zamanı əsl vətəndaşlıq, mərdlik və hünər nümunələri göstərərək Azərbaycanın istiqlaliyyəti uğrunda yaralanmış bir qrup şəxsə sonradan "Azadlıq uğrunda mübariz" fəxri adı verilib".

Sonda Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin iştirakı ilə "Azadlığa gedən yol" adlı ədəbi-bədii kompozisiya nümayiş olundu.

Tədbirin təşkilində əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyevin, polkovnik-leytenant Eldar Sadıqovun, quruluşçu-rejissor Şəhriyar Cəfərovun, ansamblın solistləri əməkdar artist Rəhilə Bəndəliyevanın, Qoşqar Qasımovun, Ağabala Abdullayevin, Günay Qasımovanın, Leyla Qəhrəmanovanın və başqalarının böyük zəhməti oldu.

Tarix unutmasın ki, varıq, var olacağıq!..

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

## Tariximizin unudulmayan səhifəsi

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində C.Naxçıvanski adına Hərbi Liseyin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 26-cı ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Hərbi Liseyin zabit, müəllim və kursant heyəti, veteran ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Qonaqlar əvvəlcə kursantların foyedə təşkil edilən 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan rəsm işlərindən ibarət sərgi ilə tanış olub və tanınmış rəssamların əsərlərinə maraqla tamaşa ediblər.

Hərbi Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Rəhim Səmədov 20 Yanvar faciəsinə həsr olunan tədbiri açıq elan etdikdən sonra ümummilli lider Heydər Əliyevin, müstəqilliyimiz və respublikamızın ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət himni ifa edilib.

Tədbirdə çıxış edən polkovnik R.Səmədov 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovetlər ittifaqının rəhbəri Mixail Qorbaçovun göstərişi ilə xüsusi qoşun hissələrinin həm quru, həm də dəniz yolu ilə Bakı şəhərinə və digər bir neçə sərhəd rayonumuza daxil olaraq, dinc insanları qətlə yetirdiyini, xalqımıza qarşı



həyata keçirilən bu terror aktının bəşəriyyət tarixində ən ağır cinayətlərdən biri olduğunu qeyd edib.

Polkovnik çıxışında bildirib ki, ulu öndərimiz Heydər Əliyev 21 yanvar 1990-cı ildə həyatını təhlükə qarşısında qoyaraq ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək yerli və xarici jurnalistlər qarşısında çıxış etmişdi. "O, qanlı yanvar faciəsinin əsl mahiyyətini və səbəbini təhlil etmiş, xalqımıza qarşı törədilən bu zorakılığı pisləmiş, terror əməliyyatını həyata keçirənləri cinayətkar adlandırmışdı".

Dahi rəhbərimiz həmin tarixi çıxışında bəyat etmişdi ki, Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. "Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Donanması, desant qoşunlarının diviziyası, hava hücumundan müdafiə qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Məhz ulu öndərin 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar faciəsi öz siyasi-hüquqi qiymətini aldı.

Sonra kursantların təqdimatında "20 Yanvar hüzn və qürur günümüzdür" mövzusunda ədəbi-bədii kompozisiya dinlənilib.

Mərasim "İşğalçı ordu" sənədli filminin nümayişi, həmçinin, hərbi vətənpərvərlik mahnılarının səsləndirilməsi ilə davam edib.

İstefada olan general-mayor Dadaş Rzayev tədbirdə kursantlara hərbi sirlərə dərindən yiyələnməyi, torpaqlarımızın azadlığı uğrunda müqəddəs qələbəyə hazır olmağı, daim fiziki, mənəvi hazırlıqlarını artırmağı tövsiyə edib.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov və Böyük Vətən müharibəsi iştirakçısı, istefada olan mayor Daməd Nəbiyev çıxış edərək bildiriblər ki, zaman-zaman xalqımızın başına gətirilən müsibətlər, müxtəlif dövrlərdə Vətənimizdə törədilmiş faciələr daim xatırlanmalı və hər birimizi mübariz olmağa sövq etməlidir.



**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MÖHBALIYEVİNDİR**



## Hərbi Polis İdarəsində anım mərasimi

Yanvarın 19-da Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində 20 Yanvar günü ilə bağlı tədbir keçirilib. Polkovnik-leytenant Dəyanət Allahyarov Qanlı Yanvar faciəsinə həsr edilmiş mərasimi açıq elan edib. Dövlət himni səsləndirilib. Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Zabit öz çıxışında 26 il öncə Sovet qoşunları tərəfindən törədilən faciədən danışıb və müstəqilliyimizin tarixində bu hadisənin qəhrəmanlıq səhifəsi olduğunu qeyd edib.

Hərbi Polis İdarəsinin rəisi polkovnik Azad Ağayev tədbirdə çıxışı zamanı bildirib ki, Sovet imperiyasının süqutuna səbəb olan 20 Yanvar hadisələri azadlığa qovuşan bir xalqın milli qürur mənbəyidir. "Sovet rəhbərliyi həmin vaxt dinc xalqın üzərinə təpədən-dırnağadək silahlanmış qoşun yeritdi. Həmin gecə Bakının küçələrində tanklar, zirehli texnikalar göründü. Azərbaycanın əzəli və əbədi torpağı olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək iddialarına qarşı ümumxalq etirazları bütün ölkəmizi dolaşanda da ermənipərəst Sovet rəhbərliyi Azərbaycan xalqının haqq səsini eşitmək istəmədi. Sonda azadlıqsevər xalqımız Sovet imperiyasının "zəncir"lərini qıraraq əbədi müstəqilliyə qovuşdu", - deyə idarə rəisi müstəqilliyimizin və torpaqlarımızın toxunulmazlığı uğrunda mübarizədə Silahlı Qüvvələrimizin rolunu yüksək qiymətləndirib.

Sonda 20 Yanvar faciəsinə həsr olunmuş sənədli film nümayiş olunub.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Vətənpərvərlik

# “Vətəni sevirəm...”

***Milli mənlik şüurunun, vətənpərvərlik hisslərinin tərbiyəsi daim cəmiyyəti düşündürən vacib məsələlərdən biridir. Hər kəsə qiymət onun Vətəninə, millətinə xidməti ilə, əsl insanlıq ləyaqəti isə vətənpərvərlik hissi ilə verilir. Bu hisslərin formalaşmasında ədəbiyyatın da rolu böyükdür.***

Vətənpərvərlik ruhunda yazılmış şeirlər, poemalar, bir çox tamaşa və filmlər cəmiyyətimizdə milli mənlik və vətənpərvərlik hisslərini tərbiyə edir. Bu sahədə öz çəkisi olanlardan, çoxşaxəli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr verən ədiblərimizdən biri də böyük söz ustası, unudulmaz şairimiz Bəxtiyar Vahabzadə olub. Onun yaradıcılığını vərəqləyən hər bir insan vətənpərvərlik ruhunda yazdığı şeir və poemalarının təsirinə düşməyə bilməz. Çünki ölməz ədibin yaradıcılığının əsas xətti vətənpərvərlik mövzusudur.

Xalq şairi Bəxtiyar Vahabzadə çağdaş şeirimizin klassikləri sırasındadır. Poeziyamızın son yarım əsrlik dövrünü Bəxtiyar Vahabzadə yaradıcılığı olmadan təsəvvür etmək mümkün deyil. Doğrudan da, söz ustadı bədii fikrimizin zənginləşməsində mühüm rol oynayıb. Dilimizin poetik imkanlarından ustalıqla bəhrələnən şair fəlsəfi məzmunlu lirikanın gözəl nümunələrini yaratmağa nail olub. Bir ömür boyunca Vətənin istiqlalı, dil, torpaq uğrunda apardığı söz mücadiləsindən alnıaçıq, üzüağ çıxan şair hər birimizin yaddaşında əsl vətənpərvər insan, layiqli vətəndaş kimi iz buraxıb.

Bəxtiyar Vahabzadə hələ ötən əsrin 60-cı illərindən başlayan milli azadlıq hərəkatının öncüllərindən biri idi. O, 1958-ci ildə yazdığı "Gülüstan" poeması ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirmiş, imperiyaların pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrunda ədalətli mübarizəsinə qoşulmuşdur. Məhz bu poemaya görə 1962-ci ildə şair "millətçi" damğası ilə Azərbaycan Dövlət Universitetindəki iş yerindən çıxarılmış, yalnız 2 ildən sonra yenidən işə bərpa edilə bilmişdir. "Gülüstan" poemasının nəşrinə Sovet dövründə uzun illər qadağa qoyulmuşdu. İstər qeyd etdiyimiz bu poema, istərsə də digər əsərləri yeniyetmə və gənclərin milli mənlik şüurunun formalaşmasında dəyərli bir mənbədir. "Gülüstan" poeması ilə Sovet rejimində milli varlığı tapdanan, hər cür məhrumiyyətlərə məruz qalan millətin dərdlərini ədəbi üsullarla ifadə etmişdir. Keçmiş Sovet diktaturasının eybəcərliklərini ifşa edən əsərlərini isə Sovet İttifaqı dağılandan sonra "Sandıqdan səslər" başlığı altında nəşr etdirmişdir.

XX əsrin ikinci yarısında - Sovet ideologiyasının ən sərt dönəmlərində Bəxtiyar Vahabzadənin ana dili uğrunda apardığı mübarizə, əslində, təkcə dil amilini əhatə etməyib, geniş mənada milli istiqlal, azad, müstəqil dövlət uğrunda mücadilənin tərkib hissəsi kimi meydana çıxıb. Bəxtiyar Vahabzadənin XX əsrin son illərindəki yaradıcılığı, demək olar ki, Azərbaycan ədəbiyyatının istiqlal uğrunda mübarizəsinin əksidir. O, həm də yazdıqlarının, ifadə etdiyi ideallarin konkret daşıyıcısı kimi də xalqımızın önündə gedib, müstəqillik uğrunda mübarizədə ziyalı mövqeyini şərəflə yerinə yetirib.

Qüdrətli söz ustası olan Bəxtiyar Vahabzadə "Şam əgər yanmırsa, yaşamır demək, Onun yaşaması yanmağındadır" misralarındakı fikirlərini özünün yaşam devizinə çevirmişdi. Bu mənəvi yanğıda Bəxtiyar Vahabzadənin mənsub olduğu millətin bütün ağrıları, acıları, həlli müşkülə çevrilmiş sızıltıları boy verirdi. Az bir vaxtdan sonra bu ağrılardan doğan neçə-neçə şeirlər, poemalar, pyeslər Azərbaycan xalqının ən dəyərli ədəbi nümunələrindən biri kimi vətəndaşlıq hüququ qazanacaqdı və qazandı da.

B.Vahabzadə də qələmdaşları kimi vətənpərvərliyi təbliğ edən çoxsaylı əsərlər yaradıb. Təbii ki, şairin Vətən sevgisi haqqında düşüncələri, anlamı tamam başqa məzmundadır: Vətəni sevmək azdır, onun yolunda həyatından keçməyə hazır olmalısan, - deyir şair.

***Vətəni sevirəm***
***deyən çox olar,***
***Deməyə nə var ki,***
***dil yorulmasa.***
***Vətən də bizim tək***
***ölər, yox olar,***
***Vətənin yolunda***
***ölən olmasa.***

Azərbaycan ədəbiyyatının, bütövlükdə XX əsr poetik fikrinin görkəmli nümayəndəsi kimi xalq şairi Bəxtiyar Vahabzadə ömrünün sonuna qədər əsl sənət ehtirası ilə yazıb yaradıb. Həyat haqqında düşüncələrini, içindəki hissləri, duyğuları sətirlərə çevirən, söz, sənət dünyasını yeni incilərlə rövnəqləndirən ustadın poeziyası özünün zənginliyi ilə daim seçilib. Şairin yaradıcılığında Vətən və onun taleyi mövzusu bir mərhələ və ya dövr deyildir, onun bütün yaradıcılığı boyu aparıcı mövzudur. O, ömrü boyu özünü bütöv və böyük Azərbaycanın şairi kimi dərk etmiş və bu missiyanın daşıyıcısı ol-



ması ilə qürur duymuşdu. Bəxtiyar Vahabzadə yalnız poeziyası ilə deyil, dramaturgiyası ilə də ədəbiyyatımızda özünəlayiq yer tutur. Görkəmli şair 70-dən artıq şeir kitabının, monoqrafiyaların və yüzlərlə məqalənin müəllifidir. Poeziyamızın ən parlaq səhifələrini yazmış şairin ömrü və yaradıcılığı Azərbaycan gəncliyinə örnəkdir. Onun şəxsiyyəti milli şüur və vətənpərvərliyin timsalı, yaradıcılığı isə gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və gənclərimizdə vətənpərvərlik hisslərinin tərbiyəsində əvəzsiz xəzinədir. Bu xəzinədə Azərbaycan gəncliyinə Vətən sevgisi, torpağa, elə-obaya bağlılıq kimi dəyərlər bəxş edən fikirlər yer alıb. Xüsusən, milli mənlik şüuru, vətənpərvərlik, Vətənə sonsuz sevginin tərənnümü baxımından Bəxtiyar Vahabzadənin şeirləri ölçüyəgəlməzdir.

Hər zaman xalqının acısı ilə yaşayan şair 1990-cı ilin qanlı 20 Yanvar hadisələrində sakit dayana bilmirdi. Onun həmin dövrdə ürək yanğısı ilə yaratdığı "Şəhidlər" poeması da Azərbaycan tarixini və milli məfkurəmizin oyanış tarixini özündə geniş əks etdirə bilmişdir. Şairin vətənpərvərlik ruhunda yazdığı şeirləri hər bir gəncə millətinə, Vətəninə sonsuz sevgi hissi aşılayır və hər kəsdə milli mənlik şüurunu formalaşdırmağa xidmət edir. Unudulmaz şairin yaradıcılığında Qarabağ hadisələri də mühüm yer tutur.

***Çağırır indi bütün milləti***
***imdada Vətən,***
***Dəyişilməz ey oğul,***
***cənnətə dünyada Vətən,***

- deyən Bəxtiyar Vahabzadə yaradıcılığını şöhrətləndirən və sevdirən başlıca səbəb yurdun hər qarışından aldığı ilham və özünün əsl "Vətən daşı" olduğunu başa düşməsindən aldığı zövqdür. Əsl vətəndaş olan şair qırılmaz tellərlə, canlı rişələrlə xalqına, elinə-obasına bağlı idi. Onun şeiri məhz xalqdan, torpaqdan güc aldığı üçün böyükdür, əzəmətlidir. Hər zaman ürəyi böyük Azərbaycanla döyünmüş vətənpərvər xalq şairi Bəxtiyar Vahabzadə bu gün yaddaşlarda da müstəqillik, azadlıq ideyalarının carçısı kimi yer tutub. Belə böyük şəxsiyyətlər isə heç zaman unudulmayacaq.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

Redaksiyanın poçtundan

# Ordumuzun uğurlarına sevinirik

***Redaksiyamıza göndərilən məktublarda ordumuza inam görürük. Bu inam ordu ilə xalqın birliyinin təcəssümüdür.***



- Oğlum İlham Fətəliyev üç aydan çoxdur əsgəri xidmətini yerinə yetirir. Onu hərbi xidmətə yola salanda dediklərimi indi də xatırlayıram: mənim oğlumsan, elə xidmət et ki, Vətənə də oğul ola biləsən.

"Açıq qapı" günündə nümayiş olunan silah və texnikalara baxdıqca sevindim. Güclü və qüdrətli bir ordumuzun olduğunu gördüm. Təbiidir ki, belə güclü və qüdrətli bir ordunu yaratmaq çox böyük zəhmət və qayğı tələb edir. Hər addımda dövlətin orduya diqqət və qayğısı hiss olunur. Belə güclü və qüdrətli ordu yaratdığına görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin minnətdarlığımı bildirirəm.

**Mübariz FƏTƏLİYEV,**
**Laçın qaçqını**



- Biz valideynlər həmişə övladlarımızın taleyindən narahatıq. Əvvəllər oğullarımızı Sovet ordusunun sıralarına - yad ölkələrə yola salırdıq. İndi biz çox xoşbəxt valideynlərik ki, bu gün övladlarımızı Azərbaycan Silahlı Qüvvələrinin sıralarına göndəririk. Övladlarımız da xoşbəxdirlər ki, doğma ordumuzda xidmət edirlər. Dədə-babalarımızdan bizlərə miras qalmış torpaqlarımızı qoruyurlar. Oğlum İlham Quluyev Əfqanıstan müharibəsində iştirak edib. Ağrılı da olsa deyim ki, İlham bu müharibədə şəhid oldu. Onun qardaşı əsgərdi. Hərbi hissədə xidmət edən əsgərləri öz balam kimi sevirəm. Ordumuzun uğurlarına sevinirəm. Bir vətəndaş kimi torpaqlarımızın erməni işğalçılarının ayağı altında qalmasından çox narahatam. İnanıram ki, gündən-günə gücünü, qüdrətini artıran Azərbaycan Ordusu şanlı tarix yazaraq yurdumuzu erməni qəsbkarlarından azad edəcək. Biz valideynlər buna inanırıq.

**Mehman QULUYEV,**
**Beyləqan**



- Bu gün hərbi hissənin qapıları həm valideynlərin, həm də ictimaiyyət nümayəndələrinin üzünə açıqdır. Hərbi hissənin ərazisinə daxil olan ilk dəqiqədən ərazidəki səliqə-sahman diqqətimi cəlb etdi. Qısa vaxt ərzində ərazi ilə tanış oldum. Gördüklərimdən sevindim. Əsgərlərin kazarmalarına, yeməkxanalarına da baş çəkdik. Hərbi hissədə əsgərlərin xidmət keçmələri üçün çox gözəl şərait yaradılıb. Məşqlərini izlədikcə hiss etdim ki, şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. Əsgərlər həm silahlardan, həm də döyüş texnikasından məharətlə istifadə edirdilər. Belə gözəl şəraiti olan hərbi hissədə xidmət etmək həm zabitlər, həm də əsgərlər üçün olduqca xoşdur. Ordumuzla fəxr edirik.

**Samir MİRZƏYEV,**
**Beyləqan**

Əsgərə məktub




Salam, əsgər bala. Nə özünü unutmuşam, nə də yaddaşımdan üzülməyən dediklərini. Sizinlə hər görüş mənə könül xoşluğu verir. Görüşürük, söhbətləşirik. Vətəndən, işğal olunmuş torpaqlarımızın sızıltısından, doğma ocağından, isti bucağından uzaq düşənlərimizin ağrı-acılarından danışırıq.

Səngər sənin ürəyindi. Sən Vətənin səngərisən. Qətiyyətin, cəsarətin hamımıza deyir ki, səngərin gecəsi-gündüzü olmur. Səngərlər qışın sazağında sənin Vətən sevginlə isinir, yayın bürküsündə sənin Vətən sevginlə sərinləyir. Tovuzun Adsız yüksəkliyində də belədi, Gədəbəyin Alagöllərində də, Murovdağda da, Horadizdə də, ...

Tovuzda, Adsız yüksəklikdə döyüş növbəsindəydin. Səndən soruşmuşdum: "Tərxis olunduqdan sonra nə edəcəksən?" Gözlərini qarşı tərəfdən üzmədən demişdin: "Səmimiliyimə inanın, ürəyimi bu dağlarda qoyub gedirəm. Əsgər olduğumu mülki həyatda da unutmayacam. Elə biləcəm ki, naməlum müddətə məzuniyyətə buraxılmışam". Sənin sözlərini "Oğulluq borcu son nəfəsəcən ödənilməli olan mənəvi borcdur" kimi anlamışdım. Sənin bu kəlmələrini başqa hərbi hissələrdə əsgərlərə qürurla, sevgiylə deyirəm.

Sizinlə doğmalarım kimi görüşürəm. Baxışlarınızda həmişə dönməz bir sevgi görürəm. Bu sevgi Vətənə ad olan sevgidi. Ona görə belə qətiyyətlisiniz, baxışlarınız ona görə belə bənzərsizdi, ona görə gözlərimi gözlərinizdən çəkə bilmirəm, əsgər bala!..

Ürək yanğısıyla şəhidlərimizdən danışırdıq. Həm də qürurla danışırdıq. Sən qardaşı şəhid olan bacının qardaşı kimi danışırdın, oğlu şəhid olan ananın oğlu kimi danışırdın, atası şəhid olan uşağın əmisi-dayısı kimi danışırdın. Onda Məhəmməd Hadinin bir kəlamını da xatırladıq: "Məfkurə yolunda tökülən qan hədər getmir".

Dövlət, dövlətçilik şəhidliklə qorunub, yaşadılıb. 1086-cı ildə Səlcuqlu Türk dövlətinin başçısı Süleyman şah suriyalılarla döyüşdə təslim olmamaq üçün intihar edib. Son nəfəsində "Mən türklüyümə və mənliyimə yaraşan iş tutdum" deyib. 906 il sonra, 1992-ci ildə Füzulidə mayor Rasim İbrahimov son məqama kimi mərdliklə, cəsarətlə döyüşdü, təslim olmadı. Ömrünə qumbara ilə son qoydu. Etibar Hüseynov Horadizdə, Baloğlan Süleymanov Zəngilanda qumbara ilə düşmən tankının altına atıldı. Mübariz İbrahimov düşmənin içinə getdi, son nəfəsinə kimi döyüşdü. Tarix bu qəhrəmanları da yaşatmaqdadır. yaşadacaq da!..

Şəhidlik ölümün məğlubiyyətidi, əsgər bala...

O vaxt dediklərini indi şeirləşdirmişəm:

***Şəhid olmağa da***
***hazırıq, Vətən,***
***Səngər sinəmizlə***
***Vətən daşıyıq!..***

Simurq qurtuluş rəmzidi. Səngərin o üzü üçün Simurq quşu bu üzündəki əsgərlərin - sizin təmasınızdı, nəfəsinizdi. Səngərin o üzü o təması, o nəfəsi duyunca bir boy da dikələcək. Simurq quşunun ecazkar qanadları səngərin o üzünü kölgələndirəcək. Onun uçuşu, gəlişi səngərləri dünya dövlətlərinin tanıdığı sərhədlərimizə köçürəcək. Mütləq köçürəcək!..

Horadizdə xanəndə Mənsum İbrahimovun yubileyində əsgərlərin sırasında oturmaq istəyən 10-12 yaşlı uşaq diqqətimi çəkmişdi. Məqam tapıb soruşmuşdum:

- Böyüyəndə kim olacaqsan, balaca?

Gözlərini qırpmadan:

- Əsgər olacam, - demişdi.

Sizdən sonra Vətəni belə oğullar qoruyacaq, əsgər bala.

Siz də bilirsiniz ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyələriylə Silahlı Qüvvələrimizdə islahatlar aparıldı. Indi ordumuz Cənubi Qafqazda ən güclü ordudur. Azərbaycan Ordusu ərazi bütövlüyümüzü qorumağa da, torpaqlarımızı işğaldan azad etməyə də qadirdir. Siz belə bir ordunun əsgərisiniz, əsgər bala. Müharibəni siz başa çatdıracaqsınız. Sən Azərbaycan əsgərisən! Azərbaycan əsgərisən!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

Xarici ölkə ordularında

# HHQ-nin döyüş hazırlığında təlimin rolu

ABŞ Hərbi Hava Qüvvələri Komandanlığı öz hərbi hissə və birləşmələrinin yüksək döyüş hazırlığına nail olması üçün hər zaman səmərəli tədbirlər həyata keçirir. Qərb hərbi mütəxəssislərinin fikrincə, ABŞ HHQ-də döyüş hazırlığının əsasını, NATO-nun bir çox ölkələrində olduğu kimi, müxtəlif miqyaslı təlimlərin keçirilməsi təşkil edir.

Qərargahlar uçuş və texniki heyəti "müharibədə lazım olan hər şeyi əldə et" prinsipi əsasında hazırlaşdırır. Bütün bunlara təlim meydanında lazımi texniki vasitələrlə təmin edilməsi və hədəflərin hansı vəziyyətdə olmasının yoxlanılması ilə nail olunur. Bunlar planlaşdırmanın və təlimlərin hazırlanmasında öz əksini tapır.

Təlimin gedişi zamanı texniki-aerodrom və təminat üzrə xidmət sahələrindən də istifadə olunur. Onlar təlimdən sonra araşdırma aparır, uçuşu, ehtiyat hissələrin gətirilməsini, aviabazaların qorunmasını və müdafiəsini təmin edir, tədbirlərin təşkilini və s. işləri həyata keçirir.

Təlimlərdə qırıcılardan və aviasiyadan istifadə edilir. Uçuş heyətinin döyüş ustalığını təkmilləşdirmək məqsədilə müxtəlif yarışlar da keçirilir. Bu yarışlarda müttəfiq ölkələrin aviasiyası da iştirak edir. Kəşfiyyat təyyarələrinin iştirakı ilə iki ildə bir dəfə irimiqyaslı təlimlər keçirilir.

Ekspertlərin məlumatına görə, ABŞ HHQ Komandanlığı tərəfindən keçirilən döyüş təlimləri aviasiya bölmələrinin döyüş qabiliyyətini yüksək səviyyəyə çatdırmağa imkan yaradıb.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan idmançısı erməni rəqibinə qalib gələrək “Rio-2016” Olimpiya Oyunlarına lisenziya qazanıb




Yanvarın 17-də İstanbulda taekvondo üzrə Olimpiya Oyunlarına lisenziya xarakterli Avropa təsnifat turnirində mübarizə aparan Azərbaycan yığmasının üzvü Milad Beigi Hərçəqanı latviyalı Yanus Kauneni (16:0), erməni idmançı Arman Yeremyanı (11:1) və yarımfinalda türkiyəli Yunus Sarını (10:1) böyük hesablarla məğlub edərək finala yüksəlib. İdmançımız finalda polşalı rəqibi Pyotr Pazinskiyə 14:2 hesabı ilə qalib gələrək turnirin qızıl medalını əldə edib.

Patimat Abakarova isə hollandiyalı Dino Poriunes-Lanqerudidən (4:1), yunanıstanlı idmançı İoanna Kotsudan (5:1), yarımfinalda isə ukraynalı İrina Romaldanovadan (3:1) üstün olaraq finala adlayıb. P.Abakarova finalda serbiyalı idmançı Tiyana Boqdanoviçi (6:5) mübarizədən kənarlaşdıraraq yarışın qalibi olub. Avropa təsnifat turnirində hər çəki dərəcəsi üzrə finala yüksələn idmançılar Olimpiya Oyunlarına vəsiqəni təmin edirlər. Beləliklə, hər iki taekvondoçumuz Rio Olimpiadasında iştirak hüququ əldə ediblər.

## Ağdamın “Qarabağ” klubu Almaniya təmsilçisinə qalib gəlib




Antalyada təlim-məşq toplanışında Ağdamın "Qarabağ" futbol klubu hazırlıq prosesi çərçivəsində ilk yoxlama matçında qalib gəlib.

Ağdam klubu Almaniyanın regional liqa təmsilçisi "Rot Vayss Essen" ilə qarşılaşıb. Qarşılaşmanın taleyini "Qarabağ"ın futbolçusu Çumbinyonun vurduğu qol həll edib - 1:0.

## Azərbaycan cüdoçusu açıq Afrika kuboku yarışlarında qızıl medal qazanıb




Tunisdə cüdo üzrə açıq Afrika kuboku yarışları davam edir.

Turnirin ilk günündə Azərbaycan millisi bir qızıl medal qazanıb.

Turnirdə 60 kiloqram çəki dərəcəsində mübarizə aparan cüdoçumuz Vüqar Şirinli iordaniyalı Hait Salman və Səudiyyə Ərəbistanından olan Eys Majraşı mübarizədən kənarlaşdıraraq yarımfinala yüksəlib. Sloveniyalı Matyaj Trboviçi məğlub edən Vüqar Şirinli finalda Fransa cüdoçusu Sedrik Revol üzərində inamlı qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Atletika üzrə Bakı çempionatına start veriləcək



Yanvarın 22-də Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə 2001-2002-ci il təvəllüdlü idmançılar arasında atletika üzrə paytaxt çempionatına start veriləcək.

Nərimanov rayonundakı Respublika Olimpiya Mərkəzində birincilik uğrunda müxtəlif klubları təmsil edən atletlər mübarizə aparacaqlar. Çempionatda idmançılar müxtəlif məsafələrə qaçış, uzunluğa, üçtəkanla, şüvüllə və hündürlüyə tullanma, nüvə itələmə yarışlarında güclərini sınayacaqlar.

Yanvarın 23-dək davam edəcək yarışlarda ilk üç yeri tutan idmançılara müvafiq dərəcəli diplomlar və xatirə hədiyyələri təqdim olunacaq.

## Azərbaycan velosipedçisi “Rio-2016”-ya lisenziya qazanıb



Azərbaycanın şosse velosipedi üzrə elit yığması və "Synergy Baku Cycling Project" kontinental komandasının üzvü Maksim Averin bu ilin avqustunda Rio-de-Janeyroda keçiriləcək 31-ci Yay Olimpiya Oyunlarında iştirak hüququ əldə edib.

Bununla bağlı Beynəlxalq Velosipedçilər İttifaqı (UCİ) tərəfindən Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinə və Azərbaycan Velosiped İdmanı Federasiyasına təsdiq məktubu göndərilib. Maksim Averin 4 illiyin zirvə yarışında ölkəmizi qrup yarışlarında təmsil edəcək.

Qeyd edək ki, Beynəlxalq Velosipedçilər İttifaqının reqlamentinə əsasən, Yay Olimpiya Oyunlarından əvvəlki il ərzində velosipedçilər təmsil etdikləri qitələr üzrə klub və yığma səviyyəsində yarışlarda iştirak etməklə Olimpiadaya lisenziya xalları toplayırlar. 2015-ci ildə "Synergy Baku"nun heyətində bir sıra yarışlarda uğurla çıxış edən Maksim Averin ümumilikdə 158 lisenziya xalı toplayıb ki, bu da Rio-de-Janeyroda qrup yarışlarında mübarizə aparacaq 142 velosipedçi sırasına düşmək üçün yetərli olub.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 32
Nüsxə 4700